**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№ 267/3** **20 oktyabr 2015-ci il**

**Azərbaycan Respublikasında auditor xidmətinin inkişaf konsepsiyasında (2012-2020-ci illər) nəzərdə tutulan tədbirlərin icrası barədə**

Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 5 sentyabr tarixli 2421 nömrəli sərəncamı ilə təsdiq edilmiş "Korrupsiyaya qarşı mübarizəyə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı"-nın 13.2-ci "Beynəlxalq təcrübə nəzərə alınmaqla auditor xidmətinin inkişaf konsepsiyasının (2012-2020-ci illər) layihəsinin hazırlanması" bəndinə əsasən hazırlanmış Azərbaycan Respublikasında auditor xidmətinin inkişaf konsepsiyasında (2012-2020-ci illər) və Auditorlar Palatasının 2015-2017-ci illər üzrə iş planının 1.1-ci və Palata Şurasının 2015-ci il üzrə iş planının 1-ci bəndlərində nəzərdə tutulan tədbirlərin icrası ilə əlaqədar Auditorlar Palatası Aparatının rəhbəri Q.Bayramovun məruzəsini müzakirə edərək, Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

**1.** "Azərbaycan Respublikasında auditor xidmətinin inkişaf konsepsiyasında (2012-2020-ci illər)" 2015-ci il üzrə yerinə yetirilməsi nəzərdə tutulan tədbirlərin icra vəziyyəti qənaətbəxş hesab edilsin (Hesabat əlavə olunur).

**2.** Auditorlar Palatasının struktur bölmələrinə (Q.Bayramov, N.Talıbov, F.Qarayev, S.Gülməmmədov, M.Abbasov, V.Rəhimov, R.Cəfərli, F.Məmmədov) tapşırılsın ki, Palatanın Şurası yanında fəaliyyət göstərən müvafiq komitələrlə birlikdə 2015-ci il ərzində nəzərdə tutulmuş tədbirlərin vaxtında və keyfiyyətlə icrasını təmin etmək məqsədilə zəruri tədbirləri həyata keçirsinlər.

**3.** Aparatın informasiya texnologiyaları üzrə mütəxəssisi R.Ələkbərova tapşırılsın ki, bu qərarın və hesabatın mətninin Auditorlar Palatasının internet səhifəsində yerləşdirilməsini təmin etsin.

**ŞURANIN SƏDRİ** **V.NOVRUZOV**